BAHƏDDİN HƏZİ

# Göyün cazibə qüvvəsi

*Esselər*

qanun nəşriyyatı

**Bahəddin Həzi. Göyün cazibə qüvvəsi (esselər).**
Bakı, Qanun Nəşriyyatı, 2025, 256 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 16.04.2025

Ön sözün müəllifi: **Seyran Səxavət**

Redaktor: **Orxan Musa**
Texniki redaktor: **Mübariz Piri**

Mətn dizaynı: **Gülnar Məmmədkərimli**
Qapaq dizaynı: **Kənan Eynullayev**

Kitabda yazıçı-publisist, əməkdar jurnalist Bahəddin Həzinin son illərdə qələmə aldığı esselər toplanıb. "Ştaynhof klinikasının küskün pasiyentləri", "Qlamur cahilin anatomiyası", "Fotogenom", "Slavyan gözəlinin diktaturası", "Tənhaların Planeti", "Uğur mələyi, incə sənət əsəri", "Yüz ilin kişisi", "Göyün cazibə qüvvəsi", "Yazıq xoşbəxt", "Bədbəxtlik indeksi və ya göz yaşı içində gülüş", "Kənar şəxslərin girişi qadağandır", "Dünyanın bu üzündə" və başqa esselərdə Yaradan, dünya, müharibə, sülh, həyat, ölüm, sevgi, qorxu, nifrət, elm, zaman və İnsanın özü haqqında fəlsəfi fikirlər, psixoloji araşdırmaların nəticələri öz əksini tapıb.

Ümid edirik ki, "Göyün cazibə qüvvəsi" də müəllifin bundan əvvəl çap olunmuş "Ölümcül həqiqətlər" kitabı kimi oxucu marağına səbəb olacaq.

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-781-0

© Qanun Nəşriyyatı, 2025
© Bahəddin Həzi, 2025

*Sevgisi və dəstəyi ilə*
*həmişə yanımda olan*
*Ailəmə minnətdarlıq hissi ilə*

***Müəllif***

# Bahəddin Həzidən niyə "şübhələndim"?!

Bahəddin Həzinin mətbuatda ara-sıra rast gəldiyim yazılarının hamısını oxumuşam. Elə də olub ki, dar macalda qəzetdə yazısını görmüşəm; fikirləşmişəm ki, sonra oxuyaram – ancaq birinci cümlə məni gözlərimdən ilişəndən sonra axıracan aparıb və neçənci dəfə olduğunu xatırlamasam da, müəllifin qələminin qüdrətinə – yazısının mükəmməlliyinə növbəti dəfə heyran qalmışam. Bu, Allahın Bahəddinə verdiyi, hər bəndəsinə "qıymadığı", bəlkə də etibar etmədiyi səmavi bir xasiyyətdir.

"Ştaynhof klinikasının küskün pasiyentləri" essesini oxuyub qurtarandan sonra mütləq və sərrast nəticəyə gəlirsən ki, bu adam – bu Qələm böyük Sözün halına zərrə qədər də acımadan onu, yəni Sözü quldarlıq dövrünün qəddar qanunları ilə "qul kimi", özü də "qara qul kimi işlədir" – necə deyərlər, Sözə dabanından tər axana qədər gözünü qırpmağa belə imkan vermir. Ona görə də yazılarında bir "nəmişlik" hiss elədim və bu qərara gəldim ki, bu duzlu nəmişlik "qara qul"a çevrilən Sözün dabanından axan tərinkidir...

Bu esseni oxuyub qurtarandan sonra müəllifə içimdə arzu şəkilli bir "iradım" da doğuldu: gərək əvvəldə yazaydı: "Əsəbi zəif olan adamların oxumağı məsləhət deyil"...

Ancaq yenə özü bilən məsləhətdir – Sözə qarşı o cür "qəddar" olan müəllifin "humanistliyinə" "inanmağım gəlmədi".

İyirmi birinci əsrin adamına birbaşa deyilmiş, səmimi, saxtakarlığın gözündən iraq olan Söz kar eləmir, gərəkdir ki, dəridən-qabıqdan çıxıb, dəlil-sübutla inandırasan – indiki halda bu çox vacib olduğundan biz də bu məntiqə söykənirik.

Bahəddin Həzi yazır:

“Geriyə “qanrılıb” folklorumuza boylansaq, görərik, babalarımız da öz ağlı ilə babat “zarafatlaşıbmış”.

“Edam kötüyünə gəlincə, üstündə kəsilən başlar qədər kötük özü də zavallı qurbandır. Axı o da nə zamansa yam-yaşıl ağac olub, kölgəsinə neçə başlar sığınıb, arın-arxayın yaşayıb. Bir vaxtlar çiyinlərdəki salamat başları öz kölgəsində barındıran, ucu göy üzünə ucalan o canlı ağac indi kəsik başların qanlı kölgəsində gizlənib, yerlərdə sürünür. Bir vaxtlar ağıllı, qürurlu başlar miskin kötüklər üstündə çırpı kimi doğranıb gedirdi, indi özü könüllü kötükləşən ödüllü başlar çoxalır, deyəsən”.

“Ziyalı”, “intellektual” dediyimiz insanlar niyə son zamanlar çox “ağıllanıblar”?!”

“Bizi millət olaraq ayıltmaq istəmiş ziyalı obrazını – “Kefli İskəndər”in özünü “ayıltma məntəqəsinə” göndərmək gərək! Bu obrazı yaradan özü də intellektualdı axı. “Kefli İskəndər” obrazı – öz millətini cəhalət yuxusundan ayıltmaq istəyən ziyalının elə öz beyninin dumanlı olmağına dair ədəbi-klinik diaqnozdur”.

“Gördünüzmü, hətta “Kefli İskəndər”in özünə də iradımız var. Az qalırıq qışqıraq: “Dərdimizdən bu qədər “keflənmək” olar?! Bizi ayılda bilmirsən, bu, hələ bir yana qalsın, barı, heç olmasa, özün ayıl!”

“...Mirzə Fətəli neynəsin indi?! Məzarından çıxıb gəlsin, “Qaloş” pirinə gedən yolumuzda post qurub şlaqbaum assın?!”

Ay, günü-gündən kökü kəsilən, "Qırmızı Kitab"a doğru inadla, hikkəylə addımlayan hörmətli oxucu, məsələ burasındadır ki, belə getsə, mən gərək bütün kitabı bu yazıma köçürəm – bu da düz gəlmir axı. Ona görə də bu kitabı oxu, onda bəlkə inandın ki, bu kişi düz deyirmiş eee...

Bəri başdan üzrxahlıq da edirəm, bağışla ki, durduğun yerdə səni belə bir ağır yükün altına itələyib, "aradan çıxıram".

Bu kitabın əvvəlindəki üç esseni oxudum, o birilərini sonraya saxladım, çünki bu möhtəşəm əlyazmasının mətbəədə nəfəsi tıncıxırdı, kitab olmaq istəyirdi, kitab...

Bahəddin Həzinin əvvəllər və indi oxuduğum əsərlərindən bu qərara gəldim ki, bu yazıların müəllifi çox dünyagörüşlü adamdır. Birinci qərarım ürəyimi çox soyutmadığına görə, ikinci qərara gəldim; bu fikirdəyəm ki, bu yazıların müəllifi bir dəfə dünyaya gəlməklə qələminin qüdrətini bütün boy-buxunu ilə belə göstərə bilməz - şübhələndim, deyəsən, Bahəddin Həzi dəfələrlə bu dünyaya gəlib-gedəndən sonra bu mətnləri yazıb. Necə deyərlər, dünyanı su yoluna döndərib... İnsan Susuz yaşaya bilməz – bax, o mənada...

Son olaraq...

Oxucu müəllim, yuxarıda səni bu ağır yükün altına itələyib aradan çıxdığıma gərə üzr istəmişdim; indi o üzrxahlığımı geri götürürəm. Ona görə ki, əgər sən o yükün altında qalsan, hesab elə ki, Allahın qanadlarının altındasan. Sənə pislik etməmişəm ki. Yerini göstərmişəm dəə... Ömrün boyu axtarıb-axtarıb tapa bilmədiyin yerini...

Rahat ol... Yerini bil... Adam yerini biləndə rahat olur...

***Seyran Səxavət***
*29 mart 2025*
*Mərdəkan*

## “Ştaynhof klinikasının” küskün pasiyentləri

Bertran Rassel öz batil inancına necə sevinmişdi, İlahi! Əslində o, heç nəyə inanmadığına inanırdı. “Mən niyə xristian deyiləm?” əsərində həyatının başlıca sualına cavab axtarırdı. “Yanlış” suala doğru cavab axtarışındaydı sanki. Amma...

Yox, mən Rassel kimi ateist deyiləm. Tanrıya illüziya kimi baxan Riçard Dokinz heç deyiləm. İnanclarımızdan da danışmayacam. Mətləb başqadır.

Sadəcə, bəri başdan bir şübhəmi dilə gətirim, ürəyimdə qalmasın: görəsən, mən ziyalı deyiləm ki?!

Bu, həm də Rasselsayağı paralel, ya da perpendikulyar sualdır: “Mən də ziyalıyammı?” Amma kim bilir, bəlkə elə ziyalı da “Dokinzsayağı” illüziyadır.

...Aşağı Avstriyadakı “Ştaynhof” ruhi xəstəxanası daha çox insanın öz ağlını itirməsində maraqlıdır; hər pasiyentə görə yaxınları klinikaya pul ödəyir axı...

Elfreda Yelinekin məşhur “Pianoçu qız” romanında dəqiq və kədərli metaforik təsbit bütün zamanlar və bütün məmləkətlər üçün keçərlidir.

Bəli, analitik zəkasını, idrak “aparat”ını itirmiş yarımağıl fərd psixatriya stasionarı üçün asan qazanc qaynağıdır. Ağıl həkimlərinin “çörək ağacı”dır. “Ağılsızlıq” hərdən sərfəli də olurmuş; hətta ən sərt cəza qanunu da anlaqsızın

törətdiyi ən ağır cinayəti belə "anlayışla" qarşılayır. Ağılsızlığın ağır cəzalara yüngülləşdirici hal sayıldığı kontinental haqq dünyasında yaşayırıq; Roma-german hüquq məktəbinin "tələbələriyik" axı. Ya da "təbəələriyik" (yaxşı mənada, yoxsa yanlış mənada, bilmirəm).

Qısacası, insan ruhunun umudsuz xəstələndiyi yerdə Yer qanunlarının qüvvəsi də "yavaşıyırmış", qanunun "vuran qolu" qəfil iflic vurmuş kimi "boşalırmış".

Bax, hər il bu balaca Planetdə, gör, nə qədər insan dəlilli-isbatlı affektin qurbanı olur! Hələ isbatsız "affekt", "anlaqsızlıq" halları da var. İllah da dünyanın "bu üzündə"...

Dəlilər həmişə, hər yerdə... bizim ağlımıza gülüb. Elə indi də. Bəlkə kimisə dəli saymağın özü də bir cür dəlilikdir. Belə olmasaydı, ruhi-əsəb dispanserinin bəzi tibbi personalı (ayrı-ayrı tibbi personaları) bir müddətdən sonra öz pasiyentlərinə bənzəyib tragikomik personajlara prototip olmazdı ki. Psixiatrların koloritli "professional qəribəliklərindən" az-çox məlumatlısınız. Ya da bəlkə bəziləriniz əyani təəssüratlısınız...

İndi hələlik indidə qalsın. Geriyə "qanrılıb" folklorumuza boylansaq, görərik, babalarımız da öz "ağlı" ilə babat "zarafatlaşıbmış; dəliliyə bir başqa "libas biçiblər". Ağız ədəbiyyatımızın "ədəbi-bədəvi" "Çənlibel"indəki mifik qəhrəmanı – "Koroğlu"nu xatırladınızmı?! Özündən başqa yeddi min yeddi yüz yetmiş yeddi dəlisi vardı. Düşmənlər onların ağlından deyil, "ağılsızlığından" qorxmalı idimi, yoxsa mən yanılıram?! Axı bir Osmanlı paşasının sarayına gizlicə soxulmaq, yaxud sultanın qızını oğurlayıb yeddi min yeddi yüz yetmiş yeddi "dəli" kişi xeylağının dəlisov ortamına zövcə deyə gətirmək normal ağlın işi deyildi. Buna yalnız və yalnız "dəlilik kağızı" düşür. Həm də bir

qazan aşı yeyəndən sonra “təşəkkür” olaraq, aşpazı iki qatlayıb qazana qapatmaq zalım mifik təfəkkürün qoyduğu tipik dəlilik diaqnozu idi. “Qəhrəmancasına dəlilik”...

Al, bu da sənə daha bir səbəb. Dəliliyin də dürlü səbəbləri olur. Dərddən ağlını itirənlər var, kontrolsuz qəzəbə qapılanlar var, hətta sevincdən şüuru qapananlar var...

Sevgidən dəli olub dərələrə düşənləri heç demirəm; Mövlanə Füzuli boyda “eşq doktoru” o fağır Qeysi “Məcnun”luqdan “sağalda bilməyibsə”, mənim sözüm nədir ki!

Fəqət mətləbimiz eşq deyil. Ya da eşqdir. Nə bilim...

...Ziqmund Freydə görə, psixi xəstəlik paranoz və epinoz fazalardan keçir. İlkin mərhələdə xəstə həyəcanlanır, qorxu, gərginlik keçirir. Bax, Adam Faverin “Ağlasığmaz” əsərində olduğu kimi. Əkiz qardaşların ikisində də şizofreniya var. Devid Keyin qəribə, qorxulu qarabasmaları bir yerdən sonra normal qarşılayacağından qayğılanır, təlaşlanır. Jasper isə artıq o yaşantı ilə çoxdan tanışıb, “anlaşıb”, sanki barışıb.

Bəli, hər halın başlanğıcı daha çox qorxudur. Hətta ən ağır, ağrılı rahatsızlığın da. Xəstəlik şiddətləndikcə, bu həyəcan, bu hal ötüb keçir, xəstə artıq öz təşvişinə də... öyrəşir. Hətta öz xəstəliyini “sevir”.

Bu, koqnitiv pozuntular üçün də keçərlidir. Hərdən fikirdən, qayğıdan çox yorulanda: “Kaş dağda çoban olaydım, heç nədən xəbərim olmayaydı” deməmisiniz?! Demisiniz. Hər kəs ömründə ən azı bir dəfə belə deyib, ya da ən azı bu cür düşünüb.

Bəlkə elə buna görə dilimizdə çox işlək bir deyim əmələ gəlib: “Ağıllı olub dərd çəkincə, dəli ol, dərdini çəksinlər”.